**DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ**
**YANINDA FƏALİYYƏT GÖSTƏRƏCƏK İCTİMAİ ŞURANIN**
**YARADILMASI ÜÇÜN KEÇİRİLMİŞ SEÇKİNİN**

# YEKUN PROTOKOLU

**27.02.2025-ci il** **Daşkəsən şəhəri**

**Birgə yığıncaqda iştirak edirdilər:**

**Seçki komissiyasının üzvləri:**

| | |
|---|---|
| 1. Namiq Süleymanov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri (iclasın sədri) |
| 2. Sahib Əhmədov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri (iclasın katibi) |
| 3. Ruslan Məmmədəliyev | Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| 4. Elmar Əliyev | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı |
| 5. Cavanşir Qocayev | Daşkəsən rayon Ağsaqqallar Şurasının sədri |
| 6. Mətanətə Abdullayeva | Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri |
| 7. Səmayə Şabanova | Daşkəsən rayon Təhsil işçiləri azad həmkarlar təşkilatının sədri |
| 8. Vasif Hüseynov | "Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri |
| 9. Bəkir Qurbanov | Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının müdiri |
| **Dəvət olunanlar:** | Daşkəsən Rayon İcra Başçısı Aparatının əməkdaşları, təhsil və mədəniyyət işçiləri, vətəndaşlar |

**Səs vermədə iştirak edən**
**vətəndaş cəmiyyəti institutlarından:**

| | |
|---|---|
| 1. Qızbəs Abbasova | Daşkəsən rayon Şəhid Anaları Xeyriyyə Mərkəzinin sədri |

2. Səttar Fətəliyev — Azərbaycan-Əfqanıstan veteranları ictimai birliyinin sədri

3. Seymur Tağıyev — "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri

## GÜNDƏLİK MƏSƏLƏ

Daşkəsən Rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərəcək ictimai şuranın növbəti iki il müddətinə seçilməsi.

## EŞİDİLDİ

Gündəlikdə duran məsələ barəsində iclasın və seçki komissiyasının sədri Namiq Süleymanov məlumat verərək bildirdi ki, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar hazırlanmış "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndlərini rəhbər tutaraq "Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın seçki komissiyasının yaradılması haqqında" Daşkəsən Rayon İcra Hakimiyyətinin 10 yanvar 2025-ci il tarixli 01 nömrəli Sərəncamının icrası məqsədilə Daşkəsən Rayon Icra Hakimiyyəti Başçısı yanında fəaliyyət göstərəcək ictimai şuraya seçkinin təşkili komissiyası tərəfindən 10.01.2025-ci il tarixdə Daşkəsən Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində tələb olunan sənədlərin siyahısı, eləcə də lazımi məlumatlar göstərilməklə ictimai şuranın yaradılması ilə bağlı elan yerləşdirilmiş və 27.02.2025-ci il tarixdə saat $16^{00}$-da Daşkəsən Rayon İcra Hakimiyyətinin inzibati binasında keçiriləcək seçkiyə namizədlərin qəbuluna başlanmışdır. 10.01.2025-ci il tarixdən 27.01.2025-ci il tarixədək həftənin 5 iş günü saat 9:00-dan 18:00-dək namizədlərin sənəd qəbulu aparılmış və müraciət edən aşağıdakı 9 (doqquz) namizədin hamısının namizədliyi komissiya üzvləri tərəfindən məqbul hesab olunmuşdur:

1. Həsənov Samir Fidail oğlu;
2. Həmidov Famil Asif oğlu;
3. Mustafayev Akif Vaqif oğlu;
4. Tağıyev Valeh Yusif oğlu;
5. Zeynalova Aygül Azad qızı;
6. Cəfərova Gülnar Abbasqulu qızı;
7. Xəlilov Vüqar Müslüm oğlu;
8. Məmmədova Gültəkin Vəli qızı;
9. Mürsəlov Mübariz Əliyar oğlu.

Seçki komissiyası vətəndaş cəmiyyəti institutlarının müraciəti əsasında birgə yığıncaqda iştirak edəcək təmsilçilərin qeydiyyatını da aparmışdır. Komissiya tərəfindən aşağıdakı təmsilçilər qeydiyyata alınmışdır:

1. Daşkəsən rayon Şəhid Anaları Xeyriyyə Mərkəzinin sədri Qızbəs Abbasova;
2. "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri Seymur Tağıyev,
3. "Azərbaycan-Əfqanıstan veteranları" İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri Səttar Fətəliyev.

## ÇIXIŞLAR

1. Daşkəsən rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qocayev çıxışında İctimai Şuranın yaradılmasının əhəmiyyətini qeyd edərək Daşkəsən Rayon İcra Hakimiyyətinin ictimai iştirakçılığın təmin edilməsində hər zaman maraqlı olduğunu vurğuladı. Ötən dövrlərdə müxtəlif mövzularda təşkil edilən ictimai müzakirələrin hökumətlə rayon ictimaiyyət arasında dialoqa böyük töhfə verdiyini bildirdi. Qeyd etdi ki, dövlət siyasətinin həyata keçirilməsində, şəffaflıq prinsipinin təmin olunmasında, ictimai əhəmiyyət kəsb edən məsələlərin həllində, vətəndaşların

istək və təkliflərinin, həmçinin problemlərinin toplanaraq yerli icra hakimiyyəti orqanına təqdim olunmasında İctimai Şuranın rolu əhəmiyyətli dərəcədə böyükdür.

2. Daşkəsən rayon Təhsil işçiləri müstəqil həmkarlar təşkilatının sədri Səmayə Şabanova çıxışında diqqətə çatdırdı ki, ictimai iştirakçılığın məqsədləri vətəndaşların dövlət işlərinin idarə olunmasında bilavasitə iştiraka cəlb edilməsi, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, ictimaiyyətlə qarşılıqlı fəaliyyətin səmərəli təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin, vətəndaşların qanuni tələbatının və maraqlarının nəzərə alınması, qanunvericiliklə müəyyən edilmiş qaydada vətəndaşların hüquqlarının və azadlıqlarının müdafiəsidir. "Daşkəsən Rayon icra hakimiyyəti yanında yeni təkibdə yaradılacaq ictimai şura da sadaladığım məsələlərə biganə qalmayacaq", - deyə çıxışının sonunda dedi.

3. "Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov isə keçiriləcək seçkinin şəffaflığını alqışlayaraq söylədi ki, Azərbaycanda demokratikləşdirmə siyasətinin bütün sahələrdə uğurla inkişafı müşahidə olunur. Bu sırada vətəndaş təşəbbüslərinin dəstəklənməsi, dövlət orqanlarının yanında QHT-lərin iştirakı ilə ictimai qurumların yaradılması və s. kimi məsələlərlə bağlı indiyədək bir sıra mühüm addımlar atılıb. Əminik ki, ötən uğurlu dövrdə olduğu kimi yeni yaradılacaq İctimai Şura Daşkəsən Rayon İcra Hakimiyyətinin fəaliyyətində ictimai iştirakçılığın məqsədini, prinsiplərini, forma və məzmununu ifadə etməklə yanaşı, mövcud problemlərin yerli qaydada həllinə nail olacaqdır.

**İclas yuxarıdakı çıxışlardan sonra seçki keçirərək**
**QƏRARA ALIR:**

1. Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış aşağıdakı şəxslər Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatı yanında fəaliyyət göstərəcək İctimai Şuranın tərkibinə seçilmiş hesab olunurlar:
   1. Həsənov Samir Fidail oğlu;
   2. Mustafayev Akif Vaqif oğlu;
   3. Zeynalova Aygül Azad qızı;
   4. Məmmədova Gültəkin Vəli qızı;
   5. Xəlilov Vüqar Müslüm oğlu.

2. Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən təsdiq edilərək İctimai Şuraya seçilmiş namizədlərə şuraya üzvlüyü təsdiq edən vəsiqələr verilsin.

3. Seçki Komissiyası tərəfindən seçkilərin nəticələrinə dair yekun protokolu tərtib olunduğu gündən iyirmi gün müddətində ilk iclasını keçirməklə Daşkəsən Rayon icra Hakimiyyəti yanında İctimai Şura fəaliyyətə başlasın.

1. **N. Süleymanov (iclasın sədri)**
2. **S. Əhmədov (iclasın katibi)**
3. **R. Məmmədəliyev**
4. **E.Əliyev**
5. **C. Qocayev**
6. **M.Abdullayeva**
7. **S.Şabanova**
8. **V. Hüseynov**
9. **B. Qurbanov**